

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 iyun 2024-cü il №44 (2855) https://mod.gov.az Qiymməti 30 qəpik


## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm.

Dünya müsəlmanlarının mənəvi həmrəyliyinin təcəssümü olan Qurban bayramında mömin insanlar Allah və din yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirmək fürsəti qazanır, Uca Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinə və elmi-fəlsəfi fikir xəzinəsinə misilsiz töhfələr vermiş Azərbaycan xalqının dünyagörüşünün təşəkkülündə və milli-mədəni inkişafında İslam dini mühüm mərhələ təşkil edir. Ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları ölkəmizdə qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında mütərəqqi islami dəyərlərin rolu danılmazdır.

Dini bayramlar, o cümlədən Qurban mərasimləri cəmiyyətimizdə milli-mənəvi birliyin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsinə çevrilir. Bu mübarək bayram günlərində ölkəmizin hər yerində geniş xeyriyyəçilik və sosial yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Xalqımızın firavanlığı və əmin-amanlığı naminə etdiyiniz duaların və kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hər birinizə səmimi təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyun 2024-cü il

*15 İyun - Milli Qurtuluş Günüdür*

## Qurtuluşdan böyük Zəfərə doğru



***Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci dövründə - 1969-1982-ci illərdə sosial-iqtisadi inkişafın və milli-mədəni oyanışın bütün sahələrində müstəqilliyə doğru böyük dönüş başladı.***

Ulu Öndər xalq təsərrüfatına rəhbərliyin bütün sahələrində tükənməz dövlət idarəçiliyi istedadı nümayiş etdirərək, elm, təhsil, mədəniyyət və səhiyyənin inkişafına böyük qayğı göstərib. Dövlətçilik fəaliyyətinin Moskva dövründə də daima Azərbaycanı düşünərək, onun taleyi ilə yaşamış, doğma respublikamızın yalnız keçmiş Sovetlər Birliyində deyil, həmçinin bütün dünyada tanıdılması üçün əməyini əsirgəməmişdir. Qarşısına qoyduğu məqsədə zaman-zaman qətiyyəti və polad iradəsi ilə nail ola bilmişdi...

Dahi Rəhbər, böyük tarixi Şəxsiyyət Heydər Əliyev SSRİ Ali Sovetinin deputatı seçilib. 9-cu çağırış SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini, Azərbaycan SSR Ali Sovetinin deputatı və respublika Ali Soveti Rəyasət Heyətinin üzvü olub, 4 dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və bir çox medallarla təltif edilərək, 2 dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb.

Ulu Öndər SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən ümumittifaq səviyyəsində nəhəng inşaat layihəsi hesab edilən Baykal-Amur Magistralının (BAM) tikintisinə rəhbərlik edir, bu çətin və mühüm layihənin həyata keçirilməsinə öz böyük əmək töhfələrini verir.

1970-1980-ci illərdə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin və SSRİ Ali Soveti nümayəndə heyətinin rəhbəri və üzvü kimi Meksika, Almaniya, Vyetnam, Koreya Xalq Demokratik Respublikası, Rumıniya, İtaliya, Misir, Suriya və Hindistana rəsmi səfərlər edib.

Ulu Öndər Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İKP MK Siyasi Bürosunun və şəxsən baş katib M.S.Qorbaçovun yeritdiyi səhv xəttə, onun antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verərək, mövcud rejimə müxalif mövqe tutur.

Ulu Öndər sovet qoşunlarının 1990-cı ilin 20 Yanvarında Bakıda törətdiyi qanlı qırğınla əlaqədar ertəsi gün Kreml rejiminin təqiblərinə baxmayaraq, Azərbaycanın Moskvadakı nümayəndəliyində verdiyi cəsarətli bəyanatında Azərbaycan xalqına qarşı silah işlədilməsini qətiyyətlə pisləyərək, Azərbaycan xalqının Qurtuluş mübarizəsinin önünə keçir. Mübariz mövqeyini qətiyyətlə davam etdirərək, Dahi Şəxsiyyət yenicə başlayan Ermənistanın Azərbaycana qarşı torpaq iddialarına mərkəzin - Moskvanın ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk edir.

Əbədiyaşar Lider doğma xalqını milli-siyasi fəlakət burulğanından xilas etmək üçün 1990-cı ilin iyulunda Azərbaycana qayıdır. İlk əvvəl Bakıda, sonra isə Naxçıvanda Qurtuluş mübarizəsini davam etdirir. Elə həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilir. 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilir.

Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü, xüsusilə onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışdığı 1991-1993-cü illər muxtar respublikanın siyasi, hərbi-siyasi, sosial-iqtisadi və mədəni inkişafının çətin, eyni zamanda, əlamətdar dövrüdür. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Naxçıvan Muxtar Respublikasını Ermənistanın silahlı təcavüzündən və işğalı təhlükəsindən xilas etdi.

Ulu Öndər NMR Ali Məclisinin sədri vəzifəsində çalışarkən, eyni zamanda, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olub. Ali Sovetin sessiyalarında fəal iştirak edib. Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasındakı çıxışında Vətənin ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, müstəqillik uğrunda mübarizəyə qoşulmağa gəldiyini bəyan edir, dağılmaqda olan Sovet İttifaqında, eləcə də Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti obyektiv təhlil edərək, cəmiyyəti dərindən düşündürən problemlər barədə mühüm ideyalar irəli sürür, prinsipial və konkret fikirlər söyləyir, təkliflər verir, siyasi və iqtisadi böhranın səbəbləri, onların aradan qaldırılması yolları barədə qətiyyətli mövqeyini bəyan edir, Ermənistan və Azərbaycan arasında mövcud olan münaqişənin səbəblərini aşkara çıxararaq, təqsirkarların dəqiq ünvanını göstərib deyirdi: "Yaranmış vəziyyətin günahkarı hakimiyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, partiya və dövlət hakimiyyətini ələ keçirmiş Qorbaçovdur".

Xalqının müstəqilliyi uğrunda dönmədən mübarizə aparan Ulu Öndər Azərbaycan Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında SSRİ rəhbərliyinin müttəfiq respublikaları guya yeni ittifaq yaratmağa çağıran təklifinə qarşı çıxır, bununla bağlı referendumda iştirak edib-etməmək məsələsində öz qətiyyətli mövqeyini belə ifadə edirdi: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

1993-cü ilin may-iyun aylarında respublikada hakimiyyət böhranı, hərc-mərclik son həddə çatdıqda ölkə vətəndaş müharibəsi və müstəqilliyinin itirilməsi təhlükəsi qarşısında qaldıqda, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Bu, əsl mənada, milli hərəkata çevrildi və nəticədə, Azərbaycanın ozamankı dövlət başçıları onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular.

**(Ardı 4-cü səhifədə)**

# Azərbaycanın müdafiə naziri Çinin hərbi nümayəndə heyəti ilə görüşüb



İyunun 14-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Çin Xalq Azadlıq Ordusunun Beynəlxalq Hərbi Əməkdaşlıq Baş İdarəsinin rəis müavini general-mayor Yao Qinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarları ziyarət edilib, üzərlərinə gül dəstələri düzülərək xatirələrinə ehtiram nümayiş etdirilib.

Nümayəndə heyətini salamlayan general-polkovnik Zakir Həsənov onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib və bu səfərin hərbi əməkdaşlığımıza öz töhfəsini verəcəyini əminliklə ifadə edib.

Azərbaycan ilə Çin arasında münasibətlərin müsbət istiqamətdə inkişafında dövlət başçılarının xüsusi rolunun olduğu diqqətə çatdırılıb.

General-polkovnik Zakir Həsənov uzun illər işğal altında olan torpaqlarımızın Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun Qələbəsi ilə nəticələnən Vətən müharibəsindən sonra azad edilməsinin xalqımız üçün tarixi əhəmiyyətindən danışıb. Qarabağ iqtisadi rayonunda heç bir mülki əhaliyə və infrastruktura zərər vermədən keçirilən antiterror əməliyyatından sonra Azərbaycanın ərazi bütövlüyünün tam təmin edildiyini qeyd edib.

Müdafiə naziri çinli qonağı Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti barədə məlumatlandırıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən general-mayor Yao Qin hər iki ölkənin orduları arasında qarşılıqlı



təcrübə mübadiləsi, eləcə də münasibətlərin daha da inkişaf etdirilməsi məqsədi ilə mütəmadi olaraq bu cür görüşlərin keçirilməsinin vacibliyini diqqətə çatdırıb. Çinli qonaq Azərbaycan Respublikasının müdafiə nazirini cari ilin sentyabr ayında Pekində keçiriləcək 11-ci Pekin Syanşan Forumuna dəvət edib.

Çinin Azərbaycanla birlikdə regionda sülhün və sabitliyin təmin olunması üçün dəstək verməyə hər zaman hazır olduğu qeyd edilib.

Görüşdə, həmçinin Azərbaycan və Çin arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində qarşılıqlı maraq doğuran məsələlər barədə geniş müzakirələr aparılıb.

# Bakıda Azərbaycan və Serbiyanın müdafiə nazirləri arasında görüş keçirilib



İyunun 14-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun dəvəti ilə Serbiya Respublikasının müdafiə naziri cənab Bratislav Qaşiçin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, serbiyalı nümayəndələr əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, Şəhidlər xiyabanında isə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin məzarlarını ziyarət edərək gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi təşkil edilib. Hər iki ölkənin müdafiə nazirləri fəxri qarovul dəstəsinin önündən keçib. Azərbaycan və Serbiya respublikalarının Dövlət himnləri səsləndirilib. Cənab Bratislav Qaşiç protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

General-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan ilə Serbiya arasında strateji tərəfdaşlıq zəminində qurulan əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edən nazir birgə hərbi əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Daha sonra müdafiə naziri regiondakı vəziyyətə toxunaraq qeyd edib ki, Vətən müharibəsi və antiterror əməliyyatından sonra Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Respublikasının ərazisindən tamamilə çıxarılıb.

General-polkovnik Zakir Həsənov cənab B.Qaşiçi 2024-cü ilin sentyabr ayında Bakıda keçiriləcək "ADEX" 5-ci Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinə dəvət edib.



Cənab B.Qaşiç isə öz növbəsində ölkəmizə rəsmi səfərindən məmnunluq ifadə edib. Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Serbiyanın müdafiə naziri Vətən müharibəsində əldə edilmiş Qələbə münasibətilə azərbaycanlı həmkarını təbrik edib. Azərbaycan ilə Serbiya arasında bütün sahələrdə əməkdaşlığa hazır olduqlarını xüsusi vurğulayıb.

Görüşdə hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb, regional təhlükəsizlik, həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

# Azərbaycan Respublikası müdafiə nazirinin Qurban bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan müsəlman dünyasının mənəvi birlik, həmrəylik, qardaşlıq rəmzinə çevrilən müqəddəs Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi dəyərlərə möhkəm bağlılığı özündə yaşatmaqla, humanizmin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsini özündə təcəssüm etdirir. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasəti nəticəsində respublikamızın iqtisadi dayaqları daha da güclənərək, demokratik dövlət quruculuğu prosesində beynəlxalq nüfuzu artmaqdadır.

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində hərbi qulluqçuların xidməti şəraitinin daha da yaxşılaşdırılması, sosial infrastrukturun gücləndirilməsi istiqamətində orduda genişmiqyaslı islahatlar aparılır.

Respublikamızın müdafiə qüdrətinin artırılmasında qazanılan böyük nailiyyətlər, düşmən təxribatlarına qarşı aparılan uğurlu irimiqyaslı əks-hücum əməliyyatı şəxsi heyətin qələbə əzmini daha da möhkəmləndirərək 2020-ci il Azərbaycan Ordusunun tarixinə Zəfər ili kimi yazıldı.

Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı parlaq Qələbə və həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində düşmən işğalında qalmış tarixi torpaqlarımız azad olundu. Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tam təmin edildi. Ötən il Xankəndi şəhərində keçirilən 8 Noyabr - Zəfər Gününün üçüncü ildönümünə həsr olunmuş Zəfər Paradı Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə gündən-günə qüdrətlənən Azərbaycan Ordusunun yenilməzliyini bir daha nümayiş etdirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xankəndi şəhərində Zəfər meydanı adlandırdığı meydanda Novruz tonqalını alovlandırmaqla, Xalq, Millət, Dövlət birliyinin təcəssümünü və Böyük Qələbəsini təsdiqlədi. Bu gün işğaldan azad olunmuş ərazilərdə rəşadətli Azərbaycan Ordusu öz mövqelərini daha da möhkəmləndirməklə, bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə, Böyük Qayıdışa layiqli töhfələrini verir.

Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlığınızı daha da artıraraq Ali Baş Komandanın əmr və tapşırıqlarını ən yüksək səviyyədə yerinə yetirəcəksiniz.

Respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı canlarından keçən şəhidlərimizin əziz xatirəsini hörmət və ehtiramla yad edir, valideynlərini, ailələrini, torpaqlarımızın azadlığı uğrunda sağlamlığını itirən döyüşçülərimizi, veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Sizi müqəddəs Qurban bayramı münasibətilə bir daha ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, ailə səadəti və şərəfli xidmətinizdə nailiyyətlər arzulayıram. Bu bayram həyatınıza əmin-amanlıq, firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının**
**müdafiə naziri**

# Növbəti "Zabit ixtisas hazırlığı kursu"nun buraxılış mərasimi keçirildi







Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Zabit ixtisas hazırlığı kursu"nun buraxılış mərasimi keçirildi.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Vətənimizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olundu.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev məzunları salamlayaraq, onları Azərbaycan Respublikasının müdafiə naziri və öz adından təbrik etdi.

Gənc zabitlərə gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayan general-polkovnik Kərim Vəliyev seçdikləri şərəfli yolda xidmətlərini nizamnamələrin tələblərinə uyğun qurmağı, ədalətli olmağı, Vətənə sədaqətlə xidmət etməyi, tabeliklərində olan şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin daha da yüksəldilməsində məsuliyyətlə çalışmalarını tövsiyə etdi.



"Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusu gündən-günə güclənir. Məhz cənab Ali Baş Komandanın birbaşa rəhbərliyi ilə Vətən müharibəsində hərbi qulluqçularımızın peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı nəticəsində Azərbaycan Ordusu qalib gəldi, 30 ilə yaxın işğalda qalmış torpaqlarımızı azad etdi. Artıq siz qalib ordunun zabitləri olaraq xidmətə başlayacaqsız. Bundan sonra siz də daim öz üzərinizdə çalışmalı, peşəkarlığınızı artırmalı, fiziki güclü, cəsarətli, savadlı zabit olaraq tabeliyinizdə olan şəxsi heyətə nümunə olmalısınız. Xidmətiniz dövründə heç bir nöqsana yol vermədən, məsuliyyətli, vicdanlı olmağınızı, bilik və bacarıqlarınızı daim artırmağınızı, harada olmağınızdan asılı olmayaraq hər zaman uğur qazanmağınızı arzulayıram", - deyə general-polkovnik Kərim Vəliyev qeyd etdi.

Daha sonra general-polkovnik Kərim Vəliyev "Zabit ixtisas hazırlığı kursu"nu yüksək balla bitirən ilk üç dinləyiciyə - leytenant Əhmədov Əsgər Məşədiəhməd oğluna (88.13 bal), leytenant Nurmətov İlkin Ramil oğluna (86.60 bal) və leytenant Abdullayev İlham İlyas oğluna (86.53 bal) qiymətli hədiyyə və sertifikatları təqdim etdi.

Sonra Milli Müdafiə Universitetinin rektoru polkovnik Gündüz Əbdülov çıxış edərək gənc leytenantları təbrik etdi, onlara gələcək xidmətlərində müvəffəqiyyətlər arzuladı.

Gənc zabitlər adından leytenant İbrahim Əliyev çıxış edərək, kurs müddətində qazandıqları bilikləri və praktiki vərdişləri xidmət yerlərində uğurla tətbiq edəcəklərinə, üzərlərinə düşən vəzifə borclarını layiqincə yerinə yetirəcəklərinə söz verdi.

Sonda "Zabit ixtisas hazırlığı kursu"nu müvəffəqiyyətlə bitirən məzunlara sertifikatlar təqdim edildi, kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə xatirə lövhəsi vuruldu.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**



# Baş Qərargah rəisi mühəndis bölmələrinin taktiki-xüsusi təlimini izləyib







*İyunun 14-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev mühəndis bölmələri ilə keçirilən taktiki-xüsusi təlimi izləyib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Mühəndis qoşunlarının hissə və bölmələrinin sərəncamında olan müasir silah və texnikaya baxış keçirildikdən sonra komandir heyətinin məruzələri dinlənilib. Baş Qərargah rəisinə məruzə olunub ki, plana əsasən, həyəcan siqnalı ilə qaldırılan bölmələr döyüşə hazır vəziyyətə gətirilərək, cəmləşmə rayonlarına çıxarılıb.

Təlimdə əsas diqqət Vətən müharibəsi və ondan sonrakı əməliyyatlar, eləcə də dünyanın müxtəlif yerlərində baş verən silahlı münaqişələrin təcrübəsi nəzərə alınmaqla mühəndis təminatı üzrə müxtəlif tapşırıqların icrasına yönəldilib.

Taktiki-xüsusi təlimin gedişini müsbət qiymətləndirən Baş Qərargah rəisi bu kimi təlimlərin keyfiyyətinin daha da artırılması və onların real döyüş şəraitinə uyğun keçirilməsi barədə göstəriş verib.



# Qurtuluşdan böyük Zəfərə doğru

(Əvvəli 1-ci səhifədə)

Dahi Rəhbər Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sədri seçildi. Həmin gün Azərbaycan xalqının tarixinə Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyevin başçılıq etdiyi qurtuluş mübarizəsi Zəfər qazandı. Bununla da Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü başladı. Azərbaycan dövlətçiliyinin məhv edilməsi, vətəndaş müharibəsi və ölkənin parçalanması təhlükəsi aradan qalxdı. İyunun 24-dən isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Oktyabrın 10-da andiçmə mərasimində xalqa müraciət etdi: "Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərək, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".



Ulu Öndərin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı, Azərbaycan dövlətçiliyinin varlığı üçün böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, dövlət müstəqilliyi qorunub saxlandı, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə son qoyuldu, ölkədə möhkəm ictimai-siyasi sabitlik bərqərar edildi.

Dünya şöhrətli siyasətçi Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə əsas qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, respublikaçılıq, ədalət, demokratiya, hüquqi dövlət quruculuğu, milli tərəqqi, dünyəvilik və s. ümummilli, ümumbəşəri dəyərləri təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu.

Dövlətin xarici siyasəti, o cümlədən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Prezidentin xarici siyasi məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından çox əhəmiyyətli idi. Bu illərdə milli ordu quruculuğunda ciddi dəyişikliklərə başlandı. Təcavüzkar erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks-zərbələr endirildi və 1994-cü il mayın 12-də silahlı münaqişənin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu.

Dahi Rəhbərin uzaqgörən, müdrik siyasəti, fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi. 1996-cı ildə ATƏT-in Lissabon sammitində bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Ermənistan-Azərbaycan münaqişəsinin həllində Azərbaycanın milli mənafelərinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Ulu Öndər Heydər Əliyevin xarici və daxili siyasi kursu uğurla həyata keçirilərək, 44 günlük Vətən müharibəsində, döyüş əməliyyatlarında, antiterror tədbirlərində qüdrətli ordumuz parlaq qələbələr qazandı. Respublikamızın suverenliyi, ərazi bütövlüyü tam təmin olundu. Azərbaycan Qurtuluşdan başlanan Zəfər yolunda inamla irəliləyir!

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan və Gürcüstan arasında hərbi informasiya sahəsində qarşılıqlı təcrübə mübadiləsi aparılıb




Bakıda Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Mətbuat Xidmətinin və Gürcüstan Müdafiə Nazirliyinin Strateji Kommunikasiyalar və İctimaiyyətlə Əlaqələr Departamentinin nümayəndələri arasında görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqlara müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyası ilə bağlı ətraflı məlumat verilib, Azərbaycan Ordusunun Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi və sonrakı hərbi əməliyyatlar zamanı dezinformasiyalara qarşı aparılan mübarizə tədbirlərindən danışılıb.

Sonra nümayəndə heyətinə Müdafiə Nazirliyi tərəfindən kommunikasiya, o cümlədən media və ictimaiyyətlə əlaqələr sahəsində görülən işlərlə bağlı brifinq təqdim edilib.

Görüşdə, həmçinin hər iki ölkə orduları arasında strateji kommunikasiya işinin təşkilinə dair ətraflı fikir mübadiləsi aparılıb, hərbi informasiya sahəsində birgə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

## Azərbaycan Serbiya ilə müdafiə sənayesi və birgə istehsal sahələrində əməkdaşlıq edəcək





Müdafiə sənayesi naziri Vüqar Mustafayev Azərbaycanda işgüzar səfərdə olan Serbiyanın müdafiə naziri Bratislav Qaşiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, V.Mustafayev nazir Bratislav Qaşiçi yeni təyinatı münasibətilə təbrik edərək dost və tərəfdaş ölkənin nümayəndələrini Azərbaycanda görməkdən məmnunluğunu ifadə edib.

Görüşdə V.Mustafayev ölkələrimiz arasında münasibətlərin inkişafında dövlət başçılarının xüsusi rolunu vurğulayaraq bir çox istiqamətlərdə olduğu kimi, müdafiə sənayesi sahəsində də sıx əməkdaşlıq əlaqələrinin mövcudluğunu qeyd edib və yeni texnologiyaların transferinin, birgə istehsal sahələrində əməkdaşlığın uğurla həyata keçiriləcəyinə əmin olduğunu bildirib.

Nazir Serbiyanın nümayəndə heyətini 2024-cü il sentyabrın 24-26-da keçiriləcək "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinə dəvət edib.

V.Mustafayev ikitərəfli münasibətlərin inkişafı üçün Serbiyanın Azərbaycanda fəaliyyət göstərən hərbi attaşelik aparatının yaradılmasını yüksək qiymətləndirib. Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən B.Qaşiç səmimi görüşə görə azərbaycanlı həmkarına minnətdarlığını bildirib. O, belə səfərlərin xüsusi əhəmiyyətə malik olduğunu, iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi üçün birgə layihələrin, həmçinin beynəlxalq müdafiə sərgilərində qarşılıqlı iştirakın əhəmiyyətindən bəhs edib.

Görüş zamanı müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi, işgüzar səfərlərin təşkili və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında müzakirələr aparılıb.

## Müdafiə Nazirliyinin məlumatı



Vətən müharibəsindən sonra Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyasının sülhməramlı kontingentinin ölkəmizin ərazisindən çıxarılması prosesi iyunun 12-də başa çatıb.

Sülhməramlı kontingentin şəxsi heyəti, silah və texnikası ərazimizi tam tərk edib.

## "Qafqaz Qartalı-2024" birgə təlimi başa çatıb



Təsdiq olunan plana əsasən, Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə ölkəmizdə keçirilən "Qafqaz Qartalı-2024" taktiki-xüsusi təlimi başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hər üç ölkənin xüsusi təyinatlıları təlim zamanı aviasiya vasitələrinin dəstəyi ilə qarşıya qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

"Qafqaz Qartalı-2024" təlimində hərbi qulluqçular yüksək peşəkarlıq nümayiş etdiriblər.

# Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 52-ci buraxılış mərasimi keçirilib





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, iyunun 14-də Milli Müdafiə Universitetinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyinin kursantlarının 2024-cü il üzrə buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, liseyin rəhbərliyi, professor-müəllim heyəti, kursantlar, təhsil ocağını müxtəlif illərdə bitirmiş məzunlar, valideynlər, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Hərbi orkestrin müşayiəti ilə şəxsi heyət Azərbaycan Respublikasının Dövlət Himnini ifa etdikdən sonra, liseyin Döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirilib.

Milli Müdafiə Universitetinin rektoru polkovnik Gündüz Əbdülov çıxış edərək əlamətdar gün münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından məzunları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Tədbirdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verilib.

Hərbi orkestrin müşayiəti ilə kursantlar lisey marşını ifa etdikdən sonra şəxsi heyət təntənəli marşla tribunanın önündən keçib.



# “Qafqaz Qartalı-2024” təliminin təntənəli bağlanış mərasimi keçirilib






"Qafqaz Qartalı-2024" beynəlxalq təliminin bağlanışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bağlanış mərasimində əvvəlcə ölkəmizin ərazi bütövlüyünün bərpası, doğma torpaqlarımızın düşməndən azad olunması uğrunda gedən döyüşlərdə canlarını fəda edən şəhidlərimizin ruhu ehtiramla yad edilib. Daha sonra hərbi orkestrin ifasında Azərbaycan, Türkiyə və Gürcüstanın Dövlət himnləri səsləndirilib.

Mərasimdə çıxış edənlər keçirilən təlimlərin üç ölkənin iştirakçı hərbi qulluqçuları arasında təcrübə mübadiləsinin aparılmasına, döyüş hazırlığının yüksəldilməsinə töhfə verdiyini bildirib. Qeyd olunub ki, təlim müddətində xüsusi təyinatlılar qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməyi bacarıb, təlim dostluq, yoldaşlıq və qardaşlıq şəraitində keçirilib.

Çıxışlar bitdikdən sonra təlim zamanı fərqlənmiş hərbi qulluqçulara xatirə hədiyyələri təqdim olunub.

Mərasimin rəsmi hissəsi başa çatdıqdan sonra təntənəli konsert proqramı təqdim edilib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin çıxışları böyük maraq və alqışlarla qarşılanıb.

# NATO-nun mobil təlim qrupu tərəfindən HHQ-də kurs keçirilib



*2024-cü il üçün NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq proqramına əsasən, NATO-nun Hərbi Hava Qüvvələri Komandanlığının Mobil Təlim Qrupu tərəfindən Bakı şəhərində HHQ-nin şəxsi heyəti ilə "HHQ-də hava məkanının idarə olunması və nəzarət" mövzusunda kurs keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, kursun məqsədi NATO-da hava məkanının idarə olunması, eləcə də hava məkanına nəzarət fəaliyyətlərinin əsas prinsiplərini tədris etmək, dinləyicilərin ixtisaslar üzrə nəzəri biliklərini təkmilləşdirməkdir.

## Milli Qəhrəmanlarımız

# Xalqımız qəhrəmanların xatirələrini həmişə uca tutacaq



*Xalqımız qəhrəmanlıq salnamələri yazan, torpaqlarımızın müdafiəsi yolunda canlarını qurban verən qəhrəman övladlarının xatirələrini həmişə yaşadır. İllər keçsə də, onlar haqqında daha çox danışılacaq. Dərsliklərdə, kitablarda onların xidmətləri, şücaətləri, əsl vətənpərvərlikləri haqqında məlumatlar əsas yer tutacaq, adları tarixdə əbədi qalacaq. Belə qəhrəman oğullardan biri də Mingəçevir şəhərində dünyaya göz açan Ruslan Həmid oğlu Muradovdur.*

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin və Mingəçevir Təhsil Sektorunun birgə təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı Ruslan Muradovun təhsil aldığı məktəbdə onun xatirəsinə həsr olunan anım mərasimi keçirildi. Mərasimdə müəllimlər, məktəblilər, müharibə iştirakçıları və ictimaiyyətin nümayəndələri iştirak etdilər.

Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlət Himni səsləndirildi.

Mərkəzin əməkdaşları Milli Qəhrəmanın həyatı və keçdiyi döyüş yolu haqqında ətraflı məlumat verdilər. Bildirdilər ki, Ruslan Muradov vətənpərvər gənc kimi təlim-tərbiyə alıb, əsl vətənpərvər kimi tanınıb. O, 27 iyun 1973-cü ildə Mingəçevir şəhərində anadan olub. 10 saylı şəhər orta məktəbində təhsil alıb. Ali təhsil almaq arzusu ilə Vitebsk şəhərinə yollanıb. Seçdiyi ali məktəbə daxil olub. Ancaq təhsilini yarımçıq qoymaq məcburiyyətində qalıb. Ölkəmizdə baş verən hadisələr Ruslanı da həmişə ciddi narahat edib. Buna görə də o, Vətənini müdafiə etmək üçün Mingəçevirə qayıdıb. 1992-ci ilin 22 yanvarında ordu sıralarına daxil olan Ruslan qısa müddətli təlimdən sonra Ağdamın Papravənd kəndinə göndərilib. Döyüş əməliyyatlarında fəal iştirak edib. Çox keçməyib ki, Ruslan həm də qorxmaz, cəsarətli və bacarıqlı kəşfiyyatçı kimi tanınıb. Düşmənin həyata keçirmək istədiyi əməliyyatlar haqqında əvvəlcədən məlumatlar öyrənib. Həmin vaxtlarda Azərbaycana məxsus təyyarə vurulanda da Ruslan və silahdaşları heyətin xilas olunması üçün xüsusi tapşırıq həyata keçirib. Düşmən mühasirə yaratsa da, onun həyata keçirdiyi kəşfiyyat tədbirləri nəticəsində bu baş tutmayıb. Ekipaj üzvləri azad olunublar. Bu əməliyyatlarda xüsusilə fərqlənən Ruslan, bundan sonra da torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə dəfələrlə fərqlənib. 1992-ci il avqustun 22-də Gülyataq kəndində şiddətli döyüşlər zamanı şəhid olub.



Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun Vətən qarşısında əvəzsiz xidmətləri yüksək qiymətləndirilib. Ona ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib. Mingəçevirdəki Şəhidlər xiyabanında canından çox sevdiyi Vətən torpağına əmanət edilib. Təhsil aldığı orta məktəbə onun adı verilib.



Məktəbin həyətində büstü qoyulub.

Məktəbin direktoru Nailə Məmmədova çıxış edərək XX əsrin sonlarında xalqımıza, Vətənimizə qarşı baş verən faciələrdən danışdı. Törədilən faciələrə baxmayaraq, xalqımız azadlıq və müstəqillik yolundan dönmədi. Elan olunmamış müharibə də düşmən qüvvələrin xalqımıza qarşı apardıqları riyakarlığın, haqsızlığın nəticəsi idi. Bu böyük sınaqlardan çıxmaq üçün xalqımız Ulu Öndər Heydər Əliyevə üz tutdu. Həyatını xalqına, Vətəninə həsr edən Ulu Öndər xalqın tələbi ilə 15 iyun 1993-cü ildə yenidən hakimiyyətə qayıtdı. Bu tarixi gündən sonra ölkəmizin həyatında yeni dövr başladı. Xalqımızın birliyinə, həmrəyliyinə və ictimai-siyasi sabitliyə nail olundu. Ordu quruculuğu yeni vüsət aldı. Güclü, qüdrətli və nizami ordu yaradıldı. 1993-cü ilin noyabrında Ulu Öndərin xalqa müraciətindən sonra minlərlə gənc Vətənin müdafiəsi üçün ordu sıralarına qatılaraq cəbhəyə yollandı. Onun rəhbərliyi ilə ordumuz uğurlu döyüş əməliyyatı keçirərək Füzuli bölgəsində kənd və qəsəbələrimizi işğaldan azad etdi. Ermənistanla atəşkəs müqaviləsi imzalandıqdan sonra isə ölkəmizdə iqtisadi-siyasi, həmçinin hərbi sahələrdə böyük irəliləyişə nail olundu. Güclü, qüdrətli Azərbaycan Ordusu formalaşdı.

Qürur hissi ilə deyə bilərik ki, tarixi Zəfər günümüzün əsasının yaradıcısı da Dahi Rəhbərimizdir. Onun layiqli siyasi davamçısı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Ulu Öndərin böyük arzularını xalqımızın, ordumuzun yenilməz birliyi, həmrəyliyi ilə həyata keçirdi. Ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa olundu. Vətənimizin müdafiəsində və Böyük Qələbənin əldə olunmasında əvəzsiz xidmətləri olan şəhidlərimizin, Milli Qəhrəmanlarımızın xatirələrini həmişə uca tutacaq, gənclərimizin onlar kimi vətənpərvər olmaları üçün vətəndaşlıq borcumuzu vicdanla yerinə yetirəcəyik.

Mərkəzin əməkdaşı Şəhla Abduləliyeva Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Milli Qəhrəmanların, şəhidlərin ailələrinə, yaralılara göstərilən diqqət və qayğıdan ətraflı bəhs etdi.

"Əsgərə məktub" layihəsi çərçivəsində Vətən keşiyində dayananlara tədbir iştirakçıları, məktəblilər qürur dolu məktublar ünvanladılar. Əsgər məktubları səsləndirildi. Milli Qəhrəmana həsr olunmuş ədəbi-bədii kompazisiya şəhidlərə tükənməz ehtiramın ifadəsinə çevrildi. Milli Qəhrəmanın büstü önünə gül dəstələri düzüldü.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

İyunun 12-si saat 10:05-dən 17:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Havuş, Ordubad rayonunun Nürgüt, Şahbuz rayonunun Güney Qışlaq yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini bir neçə dəfə atıcı silahlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətlərdə cavab tədbirləri görülüb.

* * *

İyunun 13-ü saat 19:50-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Yuxarı Buzqov yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

* * *

İyunun 14-ü saat 07:15-də Ermənistan silahlı qüvvələrinin bölmələri Soylan rayonunun Xaçik yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Axura yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

* * *

İyunun 14-ü saat 13:55-də Ermənistan silahlı qüvvələrinin bölmələri Böyük Vedi rayonu istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

# Onlar xalqımızın yaddaşında hər zaman xüsusi bir yerə sahibdirlər

İsrafil Şahverdiyev 11 iyun 1952-ci ildə Laçın rayonunun Unannovu kəndində anadan olmuşdur. O, şücaəti və vətənpərvərliyi ilə xalqımızın yaddaşında əbədi olaraq iz buraxmışdır.

İsrafil Şahverdiyev 1971-1974-cü illərdə hərbi xidmətdə olmuşdur. 1975-ci ildə Laçın rayon Daxili İşlər Şöbəsində polis kimi əmək fəaliyyətinə başlamışdır. Erməni yaraqlıları torpaqlarımıza hücum edərkən İsrafil Şahverdiyev cəsur bir polis işçisi kimi ilk günlərdən torpaqlarımızın müdafiəsinə qalxmışdı. Qala dərəsi kəndində iki erməni kəşfiyyatçını ələ keçirmişdi. Şəhid jurnalist Salatın Əsgərovanın qatillərinin ələ keçməsində onun rolu böyük idi. 1991-ci ildə Qala dərəsi kəndinin azad edilməsi üçün plan hazırlandı. Gecədən səhərə qədər davam edən qanlı döyüşdə erməni işğalçıları ağır itkilər verərək geri çəkildilər. İsrafil 1992-ci il 19 sentyabrdan 17 noyabra qədər Hoçaz qayası və Hoçaz kəndi uğrunda gedən qanlı döyüşlərdə iştirak etmiş və onlarla erməni silahlısını məhv etmişdir. 6 yanvar 1994-cü ildə Füzuli rayonunun kəndlərini azad etmək üçün döyüşə girmişdir. Bu əməliyyat nəticəsində Horadiz qəsəbəsi və 22 kənd azad edilmişdir. Cəsur komandirin son döyüşü 13 yanvar 1994-cü ildə olmuşdur. Bir neçə istiqamətdən hücu-



ma keçənlər arasında ölən və yaralananlar olduğundan döyüşçü dostlarını xilas edən İsrafil pulemyotun başına keçmiş və qarşı tərəfdən atılan güllə onun həyatına son qoymuşdur. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib. Onun şücaəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətən torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə yetirilməsindəki misilsiz xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı fərmanı ilə Şahverdiyev İsrafil Şahverdi oğluna (ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir.

İsrafil Şahverdiyev xalqımızın yaddaşında hər zaman xüsusi bir yerə sahibdir. Onun şərəfli həyatı və qəhrəmanlığı gələcək nəsillər üçün örnəkdir. Bu gün biz onun doğum gününü qeyd edərkən, eyni zamanda, onun kimi qəhrəmanlarımızın xatirəsini də əziz tuturuq. İsrafil Şahverdiyev kimi vətənpərvər qəhrəmanlarımızın örnək olduğu fədakar oğulların sayəsində torpaqlarımız azad olunmuş və Azərbaycan xalqı öz müstəqilliyini qoruyub saxlamışdır.

Qəhrəmanımızın ruhu qarşısında baş əyir, onun xatirəsini dərin hörmətlə yad edirik.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# "Şahin" hərbi-idman oyunlarının qalib komandaları mükafatlandırılıb





İyunun 10-da Gənclər paytaxtı Lənkəranda "Şahin" hərbi-idman oyununun respublika final mərhələsi keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, ümumtəhsil məktəblərinin X sinif şagirdləri arasında keçirilən "Şahin" hərbi-idman oyununun final mərhələsi məktəblilərin hərbi orkestrin ifası altında təntənəli marşla mərkəzi meydana daxil olması ilə başlayıb.

Sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbirdə gənclər və idman naziri Fərid Qayıbov, Lənkəran şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, tərəfdaş qurumların rəhbər nümayəndələri, qonaqlar və 200-dən çox gənc iştirak edib.

"Şahin" hərbi-idman oyununun yeniyetmə və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsində və məktəblilərin hərbi xidmətə hazırlıq səviyyəsinin yüksəldilməsində xüsusi rol oynayır.

Gənclər və İdman, Elm və Təhsil, Müdafiə, Fövqəladə Hallar nazirlikləri və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə keçirdiyi yarışda ümumilikdə 9 komanda sıra, fiziki, mülki-müdafiə hazırlığı və maneələrin dəf olunması, eləcə də digər mərhələlər üzrə tapşırıqları icra ediblər.

Yekun nəticələrə əsasən, 1-ci yerə Xaçmaz, 2-ci yerə Oğuz, 3-cü yerə isə Sabunçu rayon komandaları layiq görülüblər.

Qaliblər diplom, kubok və hədiyyələrlə mükafatlandırılıblar.







# Əsgərlərin qidalanması bilavasitə xidmətlərinə təsir göstərir

Azərbaycan Ordusu dünyanın güclü və inkişaf etmiş ordularındandır. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusu gündən-günə təkmilləşir. Şəxsi heyətin döyüş hazırlığı daha da gücləndirilir, sağlamlığı və mənəvi-psixoloji vəziyyəti yüksək səviyyədə saxlanılır. Hərbi qulluqçuların sosial-məişət şəraitinin mükəmməlləşdirilməsi istiqamətində də işlər icra edilir. 44 günlük haqq savaşımızda azad olunan tarixi torpaqlarımızda yeni hərbi hissələr tikilərək istifadəyə verilir. Ordumuzun maddi-texniki təminatı artdıqca, hərbi obyektlərdə yerləşən yataqxanalar, yeməkxanalar, idman şəhərcikləri, ideoloji və istirahət otaqları da təmir edilir, lazımi avadanlıqlarla təchiz olunur.



"N" hərbi hissəsində gördüklərimiz deməyə əsas verir ki, müasir Azərbaycan Ordusu günün tələbləri əsasında qurulub. Hərbi hissəyə daxil olduqda nahar vaxtı idi. Əsgərlər sıra addımları ilə yeməkxanaya daxil olurdular. Bütün tələblərə cavab verən avadanlıqlarla təmin olunan yeməkxananın girişində hərbi qulluqçuların əl-üz yumaları üçün təyin olunmuş yer, sərin və geniş yemək zalı, işçilərin səliqəli geyim forması könül oxşayırdı. İlk olaraq yeməkxananın baş aşpazı Ətlas Bağırova ilə söhbət apardıq: "Hal-hazırda biz nahar yeməyini bişiririk. Hər gün səhər yeməyi, nahar və şam yeməklərinin bişirilməsindən öncə personala təlimat verilir, bir daha menyu çatdırılır, adambaşı günlük qida normaları xatırladılır. Yeməklər təzə və yüksək kalorili ərzaqlardan hazırlanır. Vaxtlı-vaxtında yeməkxana dezinfeksiya olunur".

Yeməkxana növbətçisinin işçilərə təlimat verdiyini gördük. O, nə isə başa salır, hər kəs isə onu diqqətlə dinləyirdi. Daha sonra bizimlə həmsöhbət oldu. Gizir Rövşən Hüseynzadə dedi: "Burada baş aşpaz və aşpazlar, zal və mətbəx xidmətçiləri və başqaları əsgərlərimizin ləziz təamlarla qidalanmasına xidmət edirlər. Əminliklə demək istəyirəm ki, yeməkxanamızda çalışan hər kəs öz vəzifəsini yüksək səviyyədə icra edir. Lakin təlimat vermək də bizim vəzifə borcumuzdur. Bundan başqa, yeməkxana növbətçisi anbardan ərzağın gətirilməsinə, yeməklərin bişirilməsinə, qazanlara tökülməsinə və s. cavabdehdir. Biz də öz işimizin öhdəsindən yüksək peşəkarlıqla gəlirik ki, əsgərlərimizin yeməyi düzgün, sağlamlığı möhkəm olsun.

Aşpaz Zeynəb Məmmədova, Tamam Mehtiyeva və digərləri də deyilənlərlə razılaşdılar. Həmfikir olduqlarını qeyd edərək - "Əsgərlər bizim övladlarımızdır. Biz onlara diqqət və qayğı ilə yanaşırıq, onlar da bizi qoruyurlar", - dedilər.

İmkan tapıb əsgərlərlə də söhbət etdik. Əsgər İlkin Zeynalov yeməklərdən razı olduqlarını bildirdi: "Əsgər yeməkxanasında bişirilən yeməklər çox ləzzətli və dadlıdır. Gündəlik tələbatı ödəyən kalorili yeməklər bizi daha da güclü edir".

Hərbi hissədə əsgərlər üçün yaradılan sosial-məişət şəraiti yüksək səviyyədə təşkil olunub. Onlara göstərilən diqqət və qayğı sonsuzdur. Digər əsgər yoldaşları da İlkinin sözlərinə qoşularaq yaradılan şəraitdən razı qaldıqlarını bildirdilər.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Gürcüstan Türkiyədən NATO standartlarına uyğun zirehli transportyorlar alıb



Gürcüstanın Müdafiə Qüvvələri Türkiyədən NATO standartlarına uyğun yeni "VURAN" zirehli transportyorları alıb. Hərbi texnikanın tədarükü Türkiyə ilə Gürcüstan arasında hərbi əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı imzalanmış müqaviləyə əsasən həyata keçirilib.

Bu barədə Gürcüstanın Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Gürcüstanın Müdafiə Qüvvələrinin 4-cü piyada briqadasının Vaziani hərbi poliqonunda zirehli texnikalarının təhvil verilməsi mərasimi keçirilib.

Tədbirdə Müdafiə nazirinin müavini Serqo Canelidze, Müdafiə Qüvvələri komandanının müavini, briqada generalı İrakli Çiçinadze, Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay və müdafiə attaşesi iştirak ediblər.

Türkiyə Milli Müdafiə Nazirliyinin tabeliyində olan "ASFAT" şirkətinin baş meneceri də tədbirdə iştirak etmək üçün Gürcüstana gəlib.

"VURAN" avadanlığı və alt sistemləri olan zirehli avtomobillər NATO standartlarına uyğundur.

Bildirilir ki, Gürcüstanın Müdafiə Qüvvələrinin qeyd olunan zirehli texnika ilə təchiz edilməsi ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə, Türkiyə ilə Gürcüstan arasında əməkdaşlığın dərinləşməsinə əhəmiyyətli töhfə verəcək.

### Stoltenberq: NATO hər il Ukraynaya 40 milyard dollar dəyərində yardım edir



"Şimali Atlantika Alyansı münaqişə başlayandan Ukraynaya yardım edir. Bu dəstək də bundan sonra da göstərilməlidir".

Bunu NATO-nun Baş katibi Yens Stoltenberq Riqada keçirilən brifinqdə bildirib.

Stoltenberq vurğulayıb ki, NATO sammitində Alyans üzvlərinin Ukraynada bundan sonra da müdafiənin gücləndirilməsi barədə qərar qəbul edəcəyini gözləyir. NATO təlimlərin və Ukraynaya yardımın koordinasiyasında iştirak edəcək, eləcə də üzərinə uzunmüddətli maliyyə öhdəliyi götürəcək.

"Alyans üzvləri Ukraynaya hər il təxminən 40 milyard avro dəyərində hərbi dəstək göstərirlər. Biz bu dəstək səviyyəsini lazım olacağı qədər qorumalıyıq", - deyə Stoltenberq vurğulayıb.

### Pakistanlı general Türkiyə Silahlı Qüvvələrinin "Fəxri xidmət medalı" ilə təltif edilib



Pakistan İslam Respublikası Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Sahir Şamşad Mirzənin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə səfərdədir.

Pakistanlı general Türkiyə Silahlı Qüvvələrinin "Fəxri xidmət medalı" ilə təltif edilib. Bu məqsədlə rəsmi mərasim keçirilib.

Türkiyənin Baş Qərargah rəisi, ordu generalı Metin Gürakın dəvəti əsasında baş tutan səfər çərçivəsində general Sahir Şamsad Mirzə Türkiyənin milli müdafiə naziri Yaşar Güler və Türkiyə Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanı, donanma admiralı Ercüment Tatlıoğlu ilə görüşüb, qardaş ölkənin hərbi qüvvələrinə məxsus qurumlarda olub.

Sonra 2014-cü ildə Pakistanın Xayber Paxtunxva əyalətinin Peşəvar şəhərində yerləşən hərbi məktəbdə törədilən terror aktının qurbanlarının xatirəsinə ucaldılan abidə ziyarət edilib.

Səfər çərçivəsində iki ölkə arasında müdafiə sahəsi, eləcə də terrorla mübarizə üzrə əməkdaşlıq sahələri müzakirə olunub.

**AZƏRTAC-ın materialları əsasında**

*Asudə vaxt*

# Asudə vaxt həm də öyrənmək prosesidir

Ordumuzda daim diqqət mərkəzində saxlanılan sahələrdən biri də şəxsi heyətin asudə vaxtının səmərəli təşkilidir. Çünki bu işin səmərəli təşkili hərbi qulluqçuların intizamına, vətənpərvərlik ruhunda tərbiyə olunmasına, dünya görüşünün formalaşmasına müsbət təsir edir. Təsdiq olunmuş günün nizam qaydalarına uyğun olaraq, asudə vaxtında əsgərlərimiz müxtəlif kitab, qəzet, jurnallar oxuyur, hərbi verilişləri izləyir, tarixi qəhrəmanlarımızın döyüş yolları ilə yaxından tanış olur, şahmat, dama kimi stolüstü oyunlar oynayır və onların maraq dairəsində olan söhbətlər edirlər. Məhz bütün bunlar onların xidmətlərinin düzgün təşkilinə birbaşa təsir edir. Bu səbəbdən də yuxarı komandanlığın müvafiq tapşırıqlarına əsasən, hərbi hissələrdə bunun üçün hər cür şərait yaradılıb.

"N" hərbi hissəsində əsgərlərimiz ideoloji otaqda baş leytenant Rəhim Həsənovun nəzarəti altında asudə vaxtlarını səmərəli təşkil edirdilər. Kimi "Azərbaycan Ordusu" qəzetində dərc olunan məlumatları, kimi hərb tariximizə qızıl hərflərə həkk olunan şanlı Vətən müharibəsindən bəhs edən kitablar oxuyur, kimi isə zabitə onları maraqlandıran suallar verirdilər. O da öz növbəsində Vətən müharibəsindəki xatirələrindən danışdı.

Qeyd edək ki, baş leytenant Rəhim Həsənov Vətən müharibəsində ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında qarşısına qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Baş leytenant R.Həsənov söhbətimiz zamanı dedi ki, Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyətini və mənəvi-psixoloji hazırlığını təbliğ etmək, gəncləri orduda xidmətə həvəsləndirmək məqsədilə şərəfli hərb tariximizi, xalqımızın qəhrəmanlıq nümunələrini təbliğ edən materiallar hazırlayaraq, onlara təqdim edirik. Şərəfli xidmət və döyüş yolu keçmiş, qəhrəmanlıq nümunələri göstərmiş həmyerlilərimizi gənclərimizə tanıdırıq. "2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, ordumuzun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı, sonradan "Dəmir yumruq" adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi. İlk gündən etibarən igid oğullarımız düşmənə göz dağı verərək onlara xeyli sayda itki verdirdilər. Hər biri qorxu bilmədən irəliləyib, işğalçıları məhv edirdi. İllərdir bu günün arzusu ilə alışıb yanan hərbçilərimiz yorulmadan dağlı-dərəli yolları aşıb, torpaqlarımızda məskunlaşan mənfurları qovub çıxarırdılar. Tarixi torpaqlarımıza ayaq basan igidlərimiz daha da güclənərək, şəhidlərimizin qisasını alaraq hər gün daha da irəliləyirdilər". Sonra əsgər Emil Sadıqov zabitdən Şuşa uğrunda gedən döyüşlər haqqında danışmağını istədi. Zabit sözlərinə davam edərək dedi ki, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərin hər birinin fərqli xatirəsi vardır.



- Lakin Şuşa uğrunda gedən döyüşləri xüsusilə vurğulamaq istəyirəm. Çünki bu döyüşlər nəinki xalqımızın, hətta bütün dünyanın maraq dairəsində oldu. Hətta xarici dövlətlərdə bununla bağlı araşdırmalar aparıb, yazılar yazmışdılar. Azərbaycan hərbçisi dağlardan, qayalardan, meşələrdən keçərək Şuşanı ermənilərdən təmizləyib və müxtəlif istiqamətlərdən şəhərə yaxınlaşdı. Azərbaycan əsgərləri sıldırım qayalara çıxaraq ermənilərin müdafiə etməyə qadir olmadıqları ərazilərdən keçdilər. Dağlarda və sıx meşələrdə aparılan xüsusi əməliyyat uğurla nəticələndi. Azərbaycan hərbçiləri Şuşanın 5 kilometrliyində döyüşlər apardılar. Şuşanın cənubundakı qayalıqlara yaxın Daşaltı kəndi ətrafındakı yol azərbaycanlı hərbçilərin nəzarətinə keçdi və onlar bu şəhəri Laçınla birləşdirən yolu kəsməyə müvəffəq oldular. Noyabrın əvvəlində isə xüsusi təyinatlılar Şuşaya aparan əsas yola çıxdılar və Həkəri çayı üzərindəki körpü dağıdıldıqdan sonra şəhər üç tərəfdən mühasirəyə alındı. Növbəti üç gün ərzində uğurlu hərbi əməliyyatlar davam etdi və Müzəffər Ali Baş Komandan qələbənin qazanıldığını və Şuşanın azad edildiyini xalqa çatdırdı. Həmin gün erməni tərəfi bunu inkar etsə də, noyabrın 10-da bəyanatı imzalayan Ermənistanın baş naziri Nikol Paşinyan məğlubiyyəti və şəhərin azərbaycanlıların əlində olduğunu etiraf etdi, - deyə zabit bildirdi.

Haqq savaşımız haqqında faktları maraqla dinləyən əsgərlərin hər birinin gözlərindəki qürur və fəxarəti sezməmək mümkün deyildi. Onların fikirlərini öyrənmək üçün bir qismi ilə həmsöhbət olduq. Əsgər Seyidəli Mirhəbibli asudə vaxtlarını səmərəli keçirtmək üçün hərbi hissədə hər cür şəraitin yaradıldığını dedi. "Komandanlığın tapşırığına əsasən, hərbi hissəmizdə yaradılan şəraitdən hamımız çox razıyıq. Peşəkar, tələbkar və qayğıkeş komandirlərimiz bizə həm hərbi biliklər öyrədir, həm də daim xüsusi diqqət və qayğı göstərirlər. Bu cür rəftarın və şəraitin qarşılığında isə üzərimizə düşən əsas vəzifə xidmətimizi düzgün təşkil edib, torpaqlarımızın müdafiəsində mətin dayanmaqdır".

Əsgər Azər Bayramov və digərləri hərbidə keçirdiyi xoş günlərdən, qazandıqları dostluqlardan, yaradılan sosial-məişət şəraitindən, Vətən torpaqlarının müdafiəsində qətiyyətlə dayanmaqlarından söhbət etdilər.

**Kapitan**
**Orxan HÜSEYNLİ,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycanı Avropa çempionatında 19 cüdoçu təmsil edəcək




Bolqarıstanın paytaxtı Sofiya şəhərində yeniyetmə cüdoçular arasında keçiriləcək Avropa çempionatında iştirak edəcək Azərbaycan idmançıları müəyyənləşib.

Yarışda ölkəmiz 14 çəki dərəcəsində 10 oğlan və 9 qız cüdoçu ilə təmsil olunacaq.

Oğlanlar arasında Bahadur Feyzullayev, Məhəmmədəli Hüsiyev (50 kiloqram), Nihad Məmişov (55 kiloqram), Nihad Rəhimov (60 kiloqram), Səlim Soltanov (66 kiloqram), Cəsur İbadlı (73 kiloqram), Mehdi Abbasov, Əli Qazıməmmədov (hər ikisi 81 kiloqram), Hüseyn Eyvazlı (90 kiloqram) və Sübhan Axundov (+90 kiloqram) qüvvəsini sınayacaqlar.

Qızların mübarizəsində isə Xədicə Abdullayeva (40 kiloqram), Leyla Ələkbərova, Nərmin Məmmədli (hər ikisi 44 kiloqram), Diana Eldarova, Nuranə Hacızadə (hər ikisi 48 kiloqram), Vüsalə Hacıyeva, Aysun Məmmədova (52 kiloqram), Aytən Verdiyeva (57 kiloqram) və Mələk Bayramlı (70 kiloqram) tamiyə çıxacaqlar.

Qeyd edək ki, cüdoçular iyunun 27-29-da fərdi, iyunun 30-da isə komanda yarışlarında iştirak edəcəklər.

## Azərbaycan millisi Qazaxıstana qalib gəlib



Futbol üzrə Azərbaycan millisi Qazaxıstan yığması ilə beynəlxalq yoldaşlıq oyunu keçirib.

Qarşılaşma Macarıstanın Şombatxey şəhərində oynanılıb.

"Haladaş" İdman Kompleksinin stadionunda reallaşan görüş yığmamızın 3:2 hesablı qələbəsi ilə yekunlaşıb.

Millinin heyətində qolları Mahir Emreli, Emin Mahmudov və Toral Bayramov vurublar. Rəqibin heyətində isə Yan Voroqovski və Maksim Samorodov fərqləniblər.

Qeyd edək ki, Azərbaycan millisi iyunun 7-də keçirilmiş yoldaşlıq oyununda Albaniya seçməsinə 1:3 hesabı ilə məğlub olub.

## Futbol üzrə Avropa çempionatlarının bombardirləri



Avropa çempionatlarında ən çox qol vuran futbolçuların adları açıqlanıb.

Siyahıya Portuqaliya millisinin və Səudiyyə Ərəbistanının "Əl-Nəsr" komandasının hücumçusu Kriştiano Ronaldo başçılıq edir. O, indiyədək çıxış etdiyi 5 qitə çempionatında 14 qola imza atıb.

İkinci sırada Fransa yığmasının əfsanəvi hücumçusu Mişel Platini (9 qol) qərarlaşıb. O, bu qolların hamısını 1984-cü ildə keçirilmiş Avropa çempionatında vurub. İlk "üçlüy"ü hərəyə 7 qolla danimarkalı Ole Madsen, fransalı Antuan Qrizmann, ingiltərəli Alan Şirer və Ueyn Runi tamamlayırlar.

Zlatan İbrahimoviç (İsveç), Ruud Van Nistelrooy, Patrik Klyuvert (hər ikisi Niderland), Viktor Ponedelnik (SSRİ), Alvaro Morata (İspaniya), Romelu Lukaku (Belçika), Tyerri Anri (Fransa) və Nunu Qomeş (Portuqaliya) isə 7-14-cü yerləri bölüşdürürlər. Onların hər birinin aktivində 6 qol var.

İyunun 14-dən başlayan Avro-2024 oyunları iyulun 14-dək Almaniyada keçirilir.

**AZƏRTAC-ın materialları əsasında**

*Maraq dünyamız*

# Dünyanın ən böyük duzlu bataqlığı

*Uyuni (ispanca Salar de Uyuni) - Boliviyada Altiplano səhra düzənliyinin cənubunda, dəniz səviyyəsindən təqribən 3650 metr yüksəklikdə yerləşən duzlu bataqlıq, qurumuş duz gölüdür.*



Sahəsi 10,582 kv.km. və dünyanın ən böyük duzlu bataqlığıdır. Ölkənin cənub-qərbində Oruro və Potosi departamentlərində Uyuni şəhərinin yaxınlığında yerləşir. Əsas minerallar halit və gipsdir.

Daxili hissəsi 2-8 metr qalınlığında adi duz təbəqəsi ilə örtülür. Yağışlı mövsümdə şoranlıq nazik su təbəqəsi ilə örtülərək dünyanın ən böyük "güzgü" səthinə çevrilir. Quruduqda altıbucaqlı qabıqlarla örtülür. Onun iki görkəmli adası var: İncahuasi və Peskado.

**"Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Cəfərov Rafiq Şöhrət oğluna məxsus AD № 0006499 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Oruc MUSTAFAYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 303 Nüsxə 4650 |